**Günay Baxşəliyeva,**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin*
*Kitabxana-informasiya Mərkəzinin əməkdaşı,*
*Kitabşünaslıq və kitabxanaçılıq kafedrasının müəllimi*
*mamedova.gunay888@mail.ru*

# AZƏRBAYCANDA MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT SAHƏLƏRİNDƏ İSLAM DƏYƏRLƏRİNİN TƏDRİSİ, TƏDQİQİ VƏ TƏBLİĞİNİN KİTABXANA-İNFORMASİYA TƏMİNATI MÜASİR MƏRHƏLƏDƏ

***Xülasə:*** *Məlumdur ki, Azərbaycanda İslam dəyərlərinin və müsəlman mədəniyyətinin qorunub saxlanılmasında, öyrənilməsində və təbliğində bütün kitabxana-informasiya orqanlarının rolu əvəzsizdir. Məruzədə ölkəmizin aparıcı ali təhsil müəssisələrindən biri olan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) İslam dəyərləri üzrə kitabxana-informasiya fəaliyyətinin bəzi məsələləri araşdırılmışdır.*

***Açar sözlər:*** *ali təhsil, müsəlman, tolerantlıq, mənəvi həyat, təhsildə İslam, mədəni dəyərlər*

Tarixi həqiqətin parlaq səhifəsi kimi, bu gün böyük iftixar hissi ilə deyə bilirik ki, vətənimiz Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının və müsəlman mədəniyyətinin əsas mərkəzlərindən biri olmuşdur. Ölkəmiz İslam dininin yayılmasında və eyni zamanda "Müsəlman İntibahı"nın bərqərar olmasında müstəsna rol oynamışdır. Bu tarixi missiyanı bu gün də uğurla davam etdirməkdədir.

Müstəqillik şəraitində ölkəmizdə bünövrəsi xalqımızın ulu öndəri Heydər Əliyev tərəfindən qoyulmuş İslam dini dəyərlərinə xüsusi dövlət qayğısı, hazırda respublikamızın prezidenti, cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Bu siyasətin nəticəsində son illər ərzində ölkəmizdə İslam mədəniyyətinin qiymətli abidələrindən Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidləri və Gəncə şəhərindəki "İmamzadə" kompleksi əsaslı şəkildə yenidən qurularaq təmir olunmuş, paytaxtımızda Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər məscidi inşa edilmişdir.

Ölkəmiz tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası dialoqun qurulmasına, İslam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr vermişdir. Azərbaycanın İslam aləmində qazandığı nüfuz 2009-cu ildə Bakı və 2018-ci ildə Naxçıvan şəhərlərinin İslam mədəniyyətinin pay-

taxtı elan olunmasında öz ifadəsini tapmışdır. IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi isə ölkəmizin İslam həmrəylinin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaratmışdır. Sevindirici haldır ki, cənab prezidentimiz İlham Əliyev tərəfindən imzalanmış 10 yanvar 2017-ci il tarixli sərəncamla 2017-ci il Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilmişdir.

İslam mədəniyyəti sahəsində dövlət siyasəti və Azərbaycan xalqının əsrlər boyu qoruyub saxladığı İslam dəyərləri respublikamızda sülhün, təhlükəsizliyin, dincliyin təmin edilməsi üçün çox mühüm vacib bir elementdir.

Bu səbəbdəndir ki, Azərbaycanda müasir informasiya cəmiyyəti şəraitində elmi-fəlsəfi, milli-mənəvi, bədii-estetik və mədəni-intellektual səviyyənin yüksəlməsi və millətlərarası mədəni dialoqun inkişafı üçün dövlət tərəfindən lazımi sosiomədəni münbit şərait yaradılmışdır. Bunun da nəticəsidir, əhalinin xüsusilə də, gənclərin elmi-fəlsəfi, milli-mənəvi, bədii-estetik zövqünün formalaşması, onların mədəni-intellektual səviyyəsinin yüksəlməsində İslam dəyərlərinin yeri və rolunun öyrənilməsi və təbliğ edilməsinə xüsusi diqqət yetirilir. Burada təbiidir ki, əsas məsuliyyət sosial institut kimi məhz kitabxana-informasiya müəssisələrinin üzərinə düşür.

Aydındır ki, İslam ənənələri kitabxana işinin bütün sahələri ilə üst-üstə düşür. Bu baxımdan hesab edirik ki, Azərbaycanda formalaşmış zəngin sənəd-informasiya resursları mədəniyyət və incəsənət sahələrində İslam dəyərləri üzrə elm və təhsillə məşğul olan oxucular üçün müasir kitabxana mühitində həyata keçirilən elmi informasiya fəaliyyətinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə biz ölkənin ən mühüm və qocaman ali təhsil müsəssisələrindən biri kimi ADMİU-nun bu sahədə fəaliyyətini təhlil etməyə çalışmışıq.

Hazırda ADMİU ölkəmizdə mədəniyyət və incəsənət sahəsində yüksəkixtisaslı kadr hazırlayan həm aparıcı universitet həm də, zəngin tarixi ənənələri olan möhtəşəm elm məbədidir. Bu gün burada İslam dəyərlərinin tədrisi, tədqiqi və təbliğinə həmişəkindən daha çox önəm verilir, təhsil və təlim-tərbiyə prosesinin təşkilində, tədqiqat işində, eləcə də universitetin ictimai həyatında milli-mənəvi dəyərlərimizin və İslam mədəniyyətinin öyrənilməsi və tanıdılmasına xüsusi diqqət yetirilir. Ali təhsil ocağında kulturologiya və sənətşünaslıq üzrə təhsil prosesinin iştirakçısı olan müəllim-tələbə heyətinin, o cümlədən elmi araşdırmalar aparan alim və mütəxəssislərin İslam dəyərləri üzrə informasiya təminatının optimallaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.

Hazırda ADMİU-da professor-müəllim heyətinin, əməkdaşların, tələbə, magistrant, doktorant və dissertantların elmi mütaliə prosesini və təhsilin keyfiyyətini düzgün təşkil etmək məqsədilə fəaliyyət göstərən Kitabxana-informasiya Mərkəzi (bundan sonra – Mərkəz) ali məktəbin aparıcı struktur bölmələ-

rindən biri kimi təlim-tərbiyə və elmi tədqiqat prosesini tədris, elmi, metodiki ədəbiyyatla, digər ənənəvi və elektron informasiya materialları ilə təmin edən və bilikləri təbliğ edən intellektual elmi məkandır.

Respublikamızda mədəniyyət və incəsənətin müxtəlif sahələri üzrə ən iri, eləcə də sosial, ictimai və humanitar elmlər sahəsində aparıcı ali təhsil müəssisəsi kitabxanalarından biri kimi Mərkəzin ümumilikdə 41 min nüsxədən artıq sənəd-informasiya daşıyıcısını özündə əks etdirən fondunda İslam mədəniyyəti ilə bağlı zəngin ədəbiyyat toplanmışdır. Bu əvəzsiz xəzinəyə Azərbaycan, Şərq və Avropa xalqlarının müxtəlif dillərində nəşr edilmiş İslam mədəniyyəti ilə birbaşa və ya dolayısıyla bağlı olan cəmi 1472 nüsxədən ibarət elmi monoqrafiya, dərslik, dərs vəsaiti, dissertasiya, avtoreferat, dövri və soraq nəşrləri, təsviri sənət materialları, elektron sənədlər daxildir. Sistemli və elmi cəhətdən düzgün formalaşmış həmin sənəd kütləsi İslam dəyərlərinin və müsəlman mədəniyyətinin tədrisi, tədqiqi və təbliğində çox mühüm mənbədir. Mərkəzin sənəd-informasiya fondunun komplektləşdirilməsi prosesində bu mövzuda ədəbiyyatın əldə olunmasına xüsusi diqqət yetirilir.

Mərkəzin İslam dəyərləri üzrə elmi informasiya fəaliyyəti – *alim və mütəxəssislərin bu istiqamətdə informasiyaya olan tələbatının təmin edilməsi üzrə kitabxana fəaliyyətinin son nəticəsi olan kitabxana-biblioqrafiya və informasiya xidmətidir.* Həmçinin, bu fəaliyyət universitetdə İslam dəyərləri ilə bağlı bədii-ədəbi, fəlsəfi-tarixi və elmi əsərlərin təbliğində, oxucuların mütaliə mədəniyyətinin formalaşmasında və bu sahədə elmi-tədqiqatların sənəd-informasiya təminatında mühüm aktuallıq kəsb edir.

ADMİU-da özünün yüksək inkişaf mərhələsində olan kitabxana-biblioqrafiya və informasiya xidməti sahəsində fəaliyyət İslam mədəniyyəti üzrə mövcud sənədlər və informasiya tələbatçıları arasında uyğunluq yaratmaqda və sənəd kommunikasiya sistemində informasiya maneələrinin aradan qaldırılmasında səmərəli vasitədir. Bu vasitə insanda cəmiyyətin ideyallarına uyğun sağlam şüurlu və estetik zövqə əsaslanan mənəvi tələbat oyadır və bu tələbatın təminatına xidmət etməklə Mərkəzin İslam mədəniyyəti sahəsində elmi informasiya fəaliyyəti oxucuların intellektual inkişafında əhəmiyyətli rol oynayır.

Müasir şəraitdə Mərkəzin bu istiqamətdə kitabxana-biblioqrafiya və informasiya xidmətinin yeni texnologiyaya əsaslanaraq qurulması, onun elmi, sosial və kommunikativ funksiyasının təkmilləşməsi, struktur quruluşu, biblioqrafiyalaşdırma prosesində nəşr növlərinin zənginləşməsinə yönələn təşəbbüslərin artması və nəzəri-metodiki əsaslarının güclənməsi zəruri məsələlərdən biridir.

Burada İslam dəyərləri üzrə elmi-tədqiqatlar və təşkilati işləri həyata keçirən oxuculara göstərilən kitabxana-biblioqrafiya və informasiya xidmətinin yeni mərhələsi başlanmış, müsbət nəticələr əldə edilmişdir. Belə ki, Mərkəzdə ki-

tabxana-biblioqrafiya və informasiya xidmətinin optimallaşdırılması və iş proseslərinin avtomatlaşdırılması məqsədilə 2016-cı ildən kompüter texnologiyalarının geniş tətbiqinə başlanılmışdır.

Bu gün Mərkəzdə İslam mədəniyyəti sahəsində kitabxana-biblioqrafiya və informasiya xidməti üzrə fəaliyyət bir neçə istiqamətdə həyata keçirilir: *sənəd-informasiya fondlarının çap və elektron nəşrlərlə komplektləşdirilməsi; informasiya və soraq-biblioqrafiya xidməti; elektron soraq-biblioqrafiya aparatının təkmilləşdirilməsi* və s.

Mərkəzin İslam dəyərlərin tədrisi, tədqiqi və təbliğinin elmi informasiya təminatı sahəsində əsas fəaliyyət istiqamətlərini aşağıdakılar təşkil edir:

*- Sənəd-informasiya resursları fondunu İslam mədəniyyətinə dair kitablar, dövrü və ardı davam edən nəşrlər, dissertasiyalar və avtoreferatlardan ibarət çap və elektron ədəbiyyatla zənginləşdirmək;*

*- Sənəd-informasiya resursları fonudunu mühafizə etmək, onlardan sistemli ictiami istifadəni təmin etmək;*

*- Bu fondu özündə əks etdirən mükəmməl elektron informasiya axtarış sistemini yaratmaq və geniş istifadəsini təşkil etmək;*

*- Sahə üzrə elektron kitabxana yaratmaq və tələbatçıların hərtərəfli istifadəsinə vermək.*

Mərkəzin sənəd-informasiya resursları fondunun komplektləşdirilməsində, xüsusilə də İslam mədəniyyəti ilə bağlı ədəbiyyatla zənginləşməsində ADMİU-da çap olunan *"Mədəniyyət dünyası"* və *"Elmi Əsərlər"* adlı elmi-nəzəri məcmuələrin mühüm əhəmiyyəti vardır ki, bu məcmuələrdə sənətşünaslıq, kulturologiya, muzeyşünaslıq, fəlsəfə və digər sahələrdə İslam dəyərlərinin öyrənilməsi və onların tədrisi metodikası ilə bağlı elmi əsərlər çap olunur və bu əsərlərdə elmi və praktiki təhlillər verilir.

Sistemli təhlildən sonra mərkəzin sənəd-informasiya fondunun tərkibinin, onun zənginliyinin və burada kitabxana-informasiya fəaliyyətinin təşkilinin öyrənilməsi, bizə deməyə əsas verir ki, universitetdə İslam dəyərlərinin tədrisi, tədqiqi və təbliğinin kitabxana-biblioqrafiya və informasiya xidməti dövrün tələbləri səviyyəsində optimal formada həyata keçirilir.

Nəticədə əminliklə göstərə bilərik ki, ADMİU-nun Kitabxana-informasiya Mərkəzində formalaşmış zəngin sənəd-informasiya sərvəti Azərbaycan elminin müvafiq sahələrində İslam dəyərləri üzrə intellektual potensialı, onun qüvvəsi və qüdrətidir. Bu mənbə İslam dəyərlərinin tədrisi, tədqiqi və təbliğində mühüm əhəmiyyətə malikdir.